# SÖZÜN BAHAR GÜLLƏRİ

## Ruhsal obraz - çörək düşüncə qaynağı kimi

*(Əvvəli ötən saylarımızda)*

Gənc tənqidçini hansı istək “Nabat xalanın çörəyi”nin “dadına baxmağa” vadar edib? Hər hansı bir əsər düşüncənin vulkanik təzahürü kimi ortaya çıxırsa, istər-istəməz şimşək çaxışının kəskin işığı kimi diqqəti cəlb edir. Hətta mahiyyətinə varmadan belə, ilk baxışdan, ilk görünüşdən, ilk müşahidədən sanki instinktiv bir hiss sözü duyanı öz cazibəsinə tərəf çəkir. Vulkanik bir sıçrayışla havaya atılan lavanın məhlulu içərisində görünməyən qiymətlini görə bilmək istəyi... bax bu qarşısıalınmaz bir hissdir. Düşünmək olar ki, Şəfəq Nasiri də “Nabat xalanın çörəyi”nə tərəf çəkən onun gənclik ehtirası ilə sözün sirrini açmaq istəyindən başqa əbədi olana könül vermək duyğusu əsas olub. Bəli, o, ədəbi instinkti ilə “Nabat xalanın çörəyi”ndə əbədiyaşarı olan güc, mahiyyət görüb. Ən qüdrətli filosoflar da əbədiliyi təbiətdən çox mədəniyyətdə (sənətdə, ədəbiyyatda) görüblər. Məşhur filosof Y.E.Qolosovker (1890-1967) yazırdı: “Mütləqlik ancaq mədəniyyətdə var. Bu mütləqlik xalis daimilikdir. Təbiətdə xalis daimilik yoxdur. Təbiətdə o, nisbi xarakter daşıyır və tendensiya qismində verilir. İnsan üçün daimiliyin ali ideyası əbədiyyətdir. Yalnız əbədiyyət baxımından mədəni, daha doğrusu, qutsal yaradıcılıq mümkündür. Əbədilik ideyasının itirilməsi mədəniyyətin süqutunun və ölümünün əlamətidir. Mədəniyyətin əbədiliyə doğru belə canfəşanlıqla yönəlməsi onun kamilliyə olan meyilinin ifadəsidir.” (Y.E.Qolosovker, “Mifin məntiqi” Bakı 2006 səh.179).

Təbiətin ən gözəl lövhələri sənətin mahiyyətinə köçəndə əbədiləşə bilər. Başqa halda biz təbiətin dünənini görə bilmərik və heç bir halda o eynilə təkrar olunmur. Şumer mətnləri, Homerin poemaları, Dədə Qorqud eposu... yaradılışından əbədiyyətə hesablanır. Minilliklər ötsə belə, özünü sözün sirrini bilənlərin yozumunda həmin əsərlər təkrar-təkrar insanlığın qarşısına çıxan suallara cavab verə bilir. Bəlkə də, Şəfəq Məmmədovanın özü də “Nabat xalanın çörəyi”ndə gənc qəlbini narahat edən suallara cavab tapmaq istəyi ilə əsərə müraciət edib. Doğrudur, bir tələbə üçün “Nabat xalanın çörəyi” əsərinin ədəbi qəhrəmanlarının psixoloji mühiti ilə bağlı müəllif mövqeyini dərinliklərə qədər açmaq çətin olardı. Yəqin ki, o, gəncliyində müəllifin cəmiyyətlə üz-üzə qoyduğu ana-balanın qarşılaşdığı “cəmiyyət və insan” probleminə bütün əhatəliliyi ilə vara bilməzdi. Doğrudur, gənc tənqidçi ananın və balanın kimsəsizlik iztirablarını, köməksizlik dərdlərini duyur və bütün bunlara öz münasibətini bildirməyə çalışır. Əslində yazıçı ortaya bəşəri bir problem qoyur. Bütövlükdə cəmiyyətin diqqətini belə bir məsələyə yönəltmək istəyir ki, cəmiyyət öz ailəsinin bir üzvünü də diqqətdən kənarda qoymamalıdır. Bir sözlə, tənha və köməksiz insan özbaşına qalmamalıdır.

Cəmiyyət ana və balaya biganə olsa da Nabat xalanın əsl insani keyfiyyətləri sayəsində bu iki kimsəsiz insan cəmiyyətdən təcrid olunmur. Nabat xalanın zəngin dünyasından insanlara doğru saysız yollar, cığırlar, qapılar açılır. Gənc tənqidçi Nabat xalanın mənəvi zənginliyindən, onun təbiətinin saflığından danışarkən müharibədən sonrakı dövrdə Nabat xalanın və oğlunun qarşılaşdığı problemlərin mühitdə hakim olduğunu da qeyd edir. Ancaq “Nabat xalanın məhəbbəti təkcə oğlu Qiyamla məhdudlaşmır, bu qayğıdan çoxları bəhrələnir. O, imkanı daxilində adamlara əlindən gələn yaxşılığı edir. Eşidəndə ki, qızlığı Səriyyə ərə gedir, öz barmağındakı nişan üzüyünü çıxarıb, “qardaş payı” kimi ona göndərir. Beləliklə, N.Həsənzadə saçlarına vaxtından əvvəl dən düşmüş, ağır dərd və kədərdən qəddi əyilmiş ananın mənəvi böyüklüyünü, sadə və təmiz xasiyyətini, ləyaqətini canlı, maraqlı cizgilərlə əks etdirə bilir”. Tənqidçi əsərin məzmunu ilə bağlı qeydlərində oxucusuna Nabat xalanı tanıtmağa çalışır, özü də yaxından tanıtmağa... hətta əsəri oxumayan duyumlu oxucu ilə Nabat xala arasında mənəvi ünsiyyət körpüsü yaranır. Cəmiyyətlə üzbəüz qalan ana və bala yaxşı başa düşür ki, özləri hərəkət eləməsələr, ümumi axının içərisində məhv olub gedəcəklər. Balaca Qiyam üçün örnək elə öz anasıdır. O, anasının həyat uğrundakı mübarizəsini görür və uşaq duyumu ilə anasına təkcə mənəvi dayaq durmur, uşaq gücü ilə ona yardımçı olmağa çalışır: “Qiyam həssaslıqla anasının ürəyindəkiləri duyur. Anasının özgəyə möhtac olmamaq üçün özünü oda-közə vurduğunu görəndə bekar dayanmır. Dərs oxuya-oxuya bir ucdan da gizlincə dəmir-dümür yığır”. Şəfəq Məmmədovanın Qiyamın təbiətindəki dəyişikliyi, böyüməni təkcə fiziki baxımdan təqdim etmir, həm də onun mənən boy artımını yazıçının cümlələri ilə diqqətə çatdırır: “Kitab çantamı korlayan, ciblərimi deşən, ovcumu yaralayan, barmağımı əzən, üzümü danladan dəmirlərim”, bunlar Qiyamın öz zəhməti ilə qazancına verdiyi dəyərdir: “Anama o gün parça, ayaqqabı, qənd, çay, un verdilər”. Şəfəq məharətlə yeri gəldikcə sözünün məntiqinə tabe olan məqamları əsərin özündən fəhmi və istedadı ilə dəqiq seçir və oxucunun ünvanına yönləndirir. Hətta, ana taleyi ilə bəzi məqamları belə oğlundan gizlətmir. Çünki, yaxşı bilir ki, bu başlı-başına buraxılmış dünyada, oğlundan başqa bir ümidi yoxdur. Oğlu uşaq olsa da, düşüncəsi həyatın qəddar üzünü dərk etməkdə aciz deyil. Tənqidçi Ş.Məmmədova Qiyamın düşüncələrinə məqamında yer verir: “Anam sacı qızdırdı. Kösövləri bir-bir itələdi sacın altına. Anamın qolları da bu dəmdə kösövə oxşadı. Elə bildim hər çiynindən bir kösöv asılıb. Sacın altda odun qurtaranda, o, kösöv qollarını odunlara qatıb yandıracaq”. Gənc tənqidçi bundan sonra Qiyamın mənən böyüdüyünü göstərən məqamlara dəqiqliklə diqqət yetirir: “...buna görə də Qiyamın birinci arzusu böyüyəndən sonra, “onun-bunun ayağının tozunu silib-süpürən” anasını işdən çıxardıb evdə oturtmaqdır. Qiyamı daim fikirli görən ana deyir: “Şükür, böyük kişisən. Mən sənin həvəsinə yaşayıram, Qiyam. Sənin kimi bir oğlu olan ananın da heç dərdi olarmı?... - Bəs sənin kimi anası olan, - dedim, - ana?”

Çox həyatidir... uşaqların hələ ağrıacılara tablaşmayacaq qədər zəif olan, qəlbini yaralayan məqamlardır. Ancaq, həyat Qiyamı vaxtından əvvəl böyüdüb və elə tənqidçini sevindirən də budur ki, həyat nə qədər amansız olur-olsun, tənhalığına, təkliyinə görə gücsüzü, zəifi məhv etməyə yönəlik olsa da ona müqavimət gücü də verir. Əslində, Şəfəq Məmmədovanın - universitet tələbəsinin, başqa sözlə, gənc tənqidçinin əsərdəki belə məqamlara diqqət yetirməklə öz həmyaşıdlarını həyatla mübarizədə silahlandırmaq istəyi olub.

Cəmiyyətdə baş verən hadisələri bədii əsərdə görürüksə, heç olmasa, gördüyümüzü düşüncəmizdən keçirməli oluruqsa, bunun üçün sənətkara borcluyuq. Axı biz sənətin vasitəsilə həyat hadisələrinə qiymət verməkdə, dəyərləndirməkdə əsas səbəbkar kimi sənətkarın özünü görürük. Bu mənada, sənətkar həm də cəmiyyətin içərisində baş verən hadisələri nizamlamaq üçün elə cəmiyyətin özünə təsir etmiş olur. Və biz bunu etiraf etməyə məcburuq.

Bəzən deyirlər ki, ədəbiyyat həyata heç bir təsir göstərmir. Ola bilsin ki, bu təsiri kimsə görmür, ancaq ədəbiyyatsız cəmiyyət yırtıcılar mühitindən ibarət ola bilərdi. Bax, bunu gərək unutmayaq. N.Həsənzadənin “Nabat xalanın çörəyi” əsəri belə bir ideya üstündə köklənir ki, cəmiyyəti idarə edən insanlıqdır, insani münasibətlərdir. Çox güman ki, “Nabat xalanın çörəyi” haqqında ilk yazan müəlliflər sırasında Şəfəq Məmmədova da daxil, digərlərini də bu çörəyin dadına baxmağa çəkən amil insanlıq dəyəridir, çörəyin ruhsal dəyəridir. Bütün bunlar mənəvi düşüncə qaynağıdır.




Artıq, qeyd etdiyimiz kimi, Şəfəq ədəbi tənqidi yaradıcılıqla məşğul olduğu kimi, bədii yaradıcılıq istiqamətində də fəaliyyət göstərirdi. Hər hansı bir əsəri təhlil etmək baxımından sənət duyumu onu yarı yolda qoymadığı kimi, hər hansı bir mövzunu bədii cəhətdən işləyərkən də həyatın bir parçasını çəkib əsərə gətirə bilirdi. Əlbəttə, bu da onun ədəbi-bədii təfəkkürü ilə bağlıdır. Yeri gəldikcə əsərin razılaşmadığı tərəflərinə görə iradlarını bildirməsi də özünün mənəvi bazasına əsaslanırdı. Nabat xalanın əsərə hazır şəkildə daxil olması onu düşündürür. Qeydlərində Nabat xalanın həyatının əzəli ilə bağlı təfərrüatlı lövhələrə ehtiyac olduğunu deməsi, həm də cəsarətlə deməsi göstərir ki, o, ədəbi tənqidi material yazanda mövzu ilə yaşaya bilib. Tənqidçi də yazıçıdır - yazıçı əzabının şərikidir, - qənaəti ilə razıyıqsa, onda ədəbi tənqidi materialın yaddaşda iz buraxması üçün də yaşantı vacibdir. Çox güman ki, bu yaşantı gənc tənqidçinin mənəvi mühitində özünə xas olan bir aura yaratdığından onun yazısı canlı və həyatidir. Şəfəqin “Nabat xalanın çörəyi” əsərinə yazdığı ədəbi tənqidi material istinad elədiyi əsərin özü qədər maraqla oxunur. Məqalənin sonuna doğru müəllifin nəsr dilinə münasibəti də Şəfəqin bədii duyumu baxımından maraqlıdır: “Nabat xalanın çörəyi” şirin, yığcam, səlis bir üslubda yazılmışdır. Bu povest Nəriman Həsənzadənin nəsr qələminə rəğbət doğurur, onun gələcəkdə nəsr sahəsində də uğurlu addımlar atacağına inam yaradır”. Məqalə müəllifinin qeyd etdiyi kimi, həqiqətən, Nəriman Həsənzadə epik-lirik poemalarından sonra oxucularını möhtəşəm dram əsərləri ilə sevindirdi. Sanki, bununla Azərbaycan oxucusuna möhtəşəm romanlar borcunu verdi.

N.Həsənzadə iliyinə qədər, bütün varlığı ilə şairdir. Bəlkə, elə bu səbəbdən mənzum dram yaradıcılığı ilə lirik təsirdən yayınmadı. Əksinə, lirika duyğularını epik mənzərələrdə də qoruyub saxlamağa üstünlük verdi. Bunu Şəfəq də yazıçının ilk nəsr əsərinə münasibətində diqqətə çatdırır. Və bir daha demək yerinə düşər ki, sanki burada da Şəfəqin bədii duyumu öz gücünü nümayiş etdirir: “Qeyd etmək lazımdır ki, “Nabat xalanın çörəyi” povestində də Nəriman Həsənzadə öz poetik qələminə sadiq qalıb. Lirik, şairanə təsvirləri, lokonik dili əsərin şair qələmindən çıxdığını dərhal nəzərə çarpdırır. Bu keyfiyyət povesti nəsrlə yazılmış bir poema kimi səciyyələndirməyə haqq verir və əsərə xüsusi mövqe qazandırır”. Şəfəqin əsərin janr xüsusiyyəti ilə bağlı qənaəti göstərir ki, o, seçib təhlilə cəlb etdiyi hər hansı bir əsəri forma və məzmun baxımından vəhdətdə qavrayır.

Nəhayət, bir az əvvəl yazdığımız kimi, yazıçının qoyduğu bəşəri problemə - “cəmiyyət və insan” probleminə münasibət məsələsində Şəfəqin mövqeyi açıq qalmır. Gənc tənqidçi yazıçının qaldırdığı problemə öz adı ilə münasibət bildirməsə də mahiyyət baxımından, əhatəli təhlilləri ilə cavab verə bilir. Bu, bir daha göstərir ki, Şəfəq Məmmədova dövrün ədəbi tənqidi mənzərəsi ilə yaxından tanış olduğundan onda ədəbi-tənqidi düşüncə hələ gənc ikən formalaşır. O, ədəbi olanla, əbədi olanın mahiyyətini görə bilir. Və seçdiyi əsərə də məhz bu yöndən yanaşa bilib ki, bu da tənqidçi üçün ən vacib şərt olaraq bu gün də öz qüvvəsindədir.

...Şəfəq ədəbi-tənqidi düşüncəsinin özünüifadə imkanlarında həyatla döyüşə-döyüşə, həyatın tufanlarına sinə gərərək əzəmət və qürur abidəsi ola biləcək idealı tərənnüm edir.

*14.10.2019*